# Qərbi Azərbaycanın dünyaca məşhur xalçaları...

**Xalça yaradıcılığı xalqımızın genetik vərdişidir desək yanılmarıq. Xalçaçılığın yaranma tarixi konkret bəlli olmasa da, onun ilk toxucularının məhz maldarlıqla, qoyunçuluqla məşğul olan türk tayfaları olduğu şübhəsizdir. "İrəvanda izim qaldı" rubrikasında İrəvan, bütövlükdə isə Qərbi Azərbaycanın xalçaçılıq mühiti barədə söhbət açmaq istəyirik.**

Xalçaçılıq sənəti qeyri-adi dərəcədə gözəl, maraqlı bir incəsənət, toxuculuq sahəsidir ki, əsrlərdir insanları özünə cəlb edir. Qərbi Azərbaycan xalçaları ta qədimdən öz bənzərsizliyi ilə gözləri, könülləri oxşayıb. Qərbi Azərbaycan xalçaçılıq mühiti haqqında yazmaq istəyirəm.

Qərbi Azərbaycanın Loru, Pəmbək, Şəmşəddin, Aparan, Talın, Əştərək, Ərzin, Axtı, Qırmızı kənd, Basarkeçər, Kəvər, Sərdarabad, Üçkilsə, Dərələyəz, Vedi, Qəmərli, Zəngibasar, Soylan, İrəvan xalçaları bir vaxtlar bütün Qafqaza ün salıb, dünyaya yayılıb.

Azərbaycan xalçaçılıq məktəbinin İrəvan qrupuna aid olan xalçaçılıq qolları tarixən çox geniş şəkildə yayılıb. Uzun əsrlər bu bölgələrimizdə müxtəlif çeşnili xalçalar toxunub. Qərbi azərbaycanlılar öz yurdlarından didərgin düşənə qədər burada xalçaçılıqla məşğul olublar. Göyçəlilər, vedililər, zəngəzurlular, ağbabalılar, gərnilər və başqaları hər zaman danışırdılar ki, hər evdə xana qurulardı və qızlar, gəlinlər uzun qış gecələrində xalça toxuyardılar. Xüsusən də qışın sərt keçdiyi Qərbi Azərbaycan ellərində qış boyu xalçaçılıqla məşğul olunardı. Çox təəssüf ki, bir əsrdə bir neçə dəfə ermənilər tərəfindən soydaşlarımız öz yurdlarından deportasiya olunublar. Hər dəfə də soydaşlarımızın toxuduğu xalçaların böyük hissəsi ermənilər tərəfindən qarət edilib. Ermənilər soydaşlarımızın evindən, muzeylərimizdən qarət etdikləri xalçaları alver predmetinə çeviriblər, onları "erməni xalçaları" kimi dünya muzeylərinə, kolleksiyalara satıblar.

Tədqiqatçılar hər zaman vurğulayıblar ki, Qərbi Azərbaycanın Loru, Pəmbək, Şəmşəddin, Aparan, Talın, Əştərək, Ərzin, Axtı, Qırmızı kənd, Basarkeçər, Kəvər, Sərdarabad, Üçkilsə, Dərələyəz, Vedi, Qəmərli, Zəngibasar, Soylan kimi bölgələri olduqca müxtəlif və rəngarəng xalçaları ilə seçilirdi. Ümumilikdə, Qərbi Azərbaycanın ərazisində yaşayan azərbaycanlıların zəngin mədəniyyəti, ədəbiyyatı, folkloru qonşu xalqlara təsir göstərdiyi kimi, burada toxunan xalçalardan da yan keçməyib. İrəvan xanlığının həyatında mühüm rol oynayan sənətkarlıq müxtəlif sahələri özündə ehtiva edirdi. Azərbaycanlıların ənənəvi sənətkarlıq sahələri olan toxuculuq və dulusçuluq bütün Qərbi Azərbaycan boyunca geniş yayılmışdı. Toxuculuq, o cümlədən, xalça, palaz məmulatı istehsalı xüsusilə seçilirdi. O dövrün səyyahları yerli əhalinin qoyun saxladığını və qoyun yunundan gözəl xalçalar, kisə, palaz, çul, qışda geyinmək üçün isti paltarlar, ələcək, corab toxunduğunu qeyd ediblər. Bölgənin tarixi kökləri çox qədimə gedən xalçaları vaxtilə bütün dünyada məşhur olub. Bu fikirlər bir neçə il əvvəl AMEA-nın A.Bakıxanov adına Tarix institutunun qərarı ilə çap olunan "Azərbaycan xalçaları İrəvavan qrupu" kitabı barədə yazılıb.

Sözügedən kitabda toplanan xalçalar, əsasən XIX-XX əsrləri əhatə edir. 1948-53-cü il deportasiyası nəticəsində minlərlə insan öz torpağından çıxarılıb, başqa ərazilərə köçürülüb. Boşalan kəndlərdə, təbii olaraq, xalça ənənəsi də itib- batıb. Qərbi Azərbaycan ərazisində toxunan xalçaları sənətkarlıq imkanlarına, toxunma texnologiyasına, rəng-naxış kompozisiya həllinə görə, şərti olaraq mahallar üzrə aşağıdakı qruplara ayrılıb:

I qrup: Ağbaba, Şörəyel mahalları
II qrup: Loru, Pəmbək mahalları
III qrup: Şəmşəddin mahalı
IV qrup: Göyçə mahalı
V qrup: Gərnibasar, Vedibasar mahalları
VI qrup: Zəngibasar, Sərdarabad mahalları
VII qrup: Qırxbulaq, Əştərək mahalları
VIII qrup: Aparan, Dərəçiçək, Talın mahalları
IX qrup: Zəngəzur mahalı
X qrup: Dərələyəz mahalı
XI qrup: İrəvan şəhəri

Qeyd edilənə görə, Azərbaycan xalçalarının İrəvan qrupu Azərbaycan mədəniyyətinin tərkib hissəsi olub, onun əsas sənətkarlıq xüsusiyyətlərini özündə əks etdirir. Tarixi Azərbaycan torpaqlarının bir hissəsi olan Qərbi Azərbaycanda yaradılan xalçaçılıq nümunələri azərbaycanlıların indiki Ermənistandan deportasiyasının başa çatdığı bir şəraitdə, onların məskunlaşdığı Azərbaycan Respublikası ərazisində davam etdirilir. Qərbi azərbaycanlıların tarixi ənənələri, o cümlədən xalçaçılıq sənətini layiqincə yaşatması onların dədə-baba torpaqlarına qayıtmaq arzusunun bir daha yenilməz təsdiqidir.

Tədqiqatçılara görə, İrəvan şəhəri və onun ətrafında olan mahallar qədim türk-oğuz tayfalarının yaşadığı ərazilər olub. Bu ərazidə olan saysız-hesabsız yaşayış məskənləri-nekropollar, kurqanlar, qala, saray və istehkam qalıqları, karvansaralar, körpülər, qəbirüstü sərdabələr, eləcə də, qəribə formalı daşlar, at, qoç heykəlləri, məbəd, kilsə, məscid, pir və ocaqlar yerli əhalinin tarixindən, dünyagörüşündən, etnik, mənsubiyyətindən xəbər verir. İstər yer-yurd və coğrafi adlar, istərsə də müasir dövrümüzə qədər gəlib çatmış folklor nümunələri vaxtilə bu ərazidə yaşamış Azərbaycan türklərinin (azərbaycanlıların) keçmişini, zəngin mədəni irsini özündə təcəssüm etdirir. Buranın yerli əhalisi sənətkarlıq, əkinçilik və heyvandarlıqla məşğul olmuş, təbiətin bəxş etdiyi nemətlərdən səmərəli istifadə edib.

Yerli əhalinin zəngin təxəyyülünün məhsulu olan folklor, mif və əsatirlər, nağıllar, poetik nümunələr burada yurd salmış insanların həm də dünyagörüşünün göstəricisidir. Bu bölgədə ənənəvi türk dünyagörüşünü əks etdirən mif və rəvayətlərdən başqa, hər bir coğrafi adın, müqəddəs yerin tarixçəsini özündə yaşadan hekayətlər də yaranmışdır. Ağbabadan Vedibasara, Lorudan Zəngəzura, Göyçədən Zəngibasara qədər olan ərazidə sıx yaşamış əhali tarixi kökləri çox qədimlərə gedən memarlıq, sənətkarlıq nümunələri ərsəyə gətirib.



Bu ərazidə yaşayan azərbaycanlıların məişətində xalça və xalça məmulatları əsas yer tutur. Qərbi Azərbaycanda müxtəlif ölçülü xalçalarla, kilimlərlə bərabər namazlıqlar, çullar və digər toxunma məmulatları da var idi. Zəngin təbiəti bu bölgənin xalçalarına xüsusi çalarlar verib, onun rəng kompozisiyasının həllinə çoxçeşidli boyalar bəxş edib. Al-əlvan boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətdir. Xalçaların naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutub, onların ifadəsi xalçalarda öz əksini tapıb. Mifoloji quşlar, heyvanlar, həmçinin, dünyaya yanaşma tərzindən irəli gələn semantik elementlər bu bölgənin xalçaları üçün spesifik idi. Azərbaycanın müxtəlif xalçaçılıq məktəbləri ilə sıx əlaqəsi duyulan İrəvan xalçalarının bu ərazidə yaşayan insanların əsas düşüncə və hisslərinin müstəvisi kimi çıxış etdiyini söyləmək olar. Bu fikirlər də sözügedən nəşrdə ifadə olunub.

Əlbəttə, Qərbi Azərbaycan xalçaları qədim oğuz türklərinin həyat tərzində, məşğuliyyətində xüsusi yer tutub.

Mərhum professor Vidadi Muradov vaxtilə "Bakı-Xəbər"ə müsahibəsində qeyd edirdi ki, xalçaların naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutmuş, onların ifadəsi xalçalarda öz əksini tapıb. "Mifoloji quşlar, heyvanlar, həmçinin dünyaya yanaşma tərzindən irəli gələn semantik elementlər bu bölgənin xalçaları üçün spesifik idi.Azərbaycanın müxtəlif xalçaçılıq məktəbləri ilə sıx əlaqəsi duyulan İrəvan xalçalarının bu ərazidə yaşayan insanların əsas düşüncə və hisslərinin müstəvisi kimi çıxış etdiyini söyləmək olar. İrəvan xanlığı və onun bölgələrinin Azərbaycan xanlıqları, eləcə də bir çox xarici ölkələrlə geniş ticari əlaqəsi olub. 1782-ci ildə İrəvanda olan rusiyalı Reyneks buranın pambıq parça, ipək, yazlıq buğda, şərabla bol olduğunu söyləyib. Burada həmçinin çəltik istehsalı, küncüt, kətan əkilib-becərilirdi. İ.Şopen İrəvanda olarkən xanlığın ərazisində gördüyü toxmaçarlıqların sayını ipəkçiliyin geniş yayılması ilə əlaqələndirir. İrəvan ərazisi meyvə və üzüm bağları, müxtəlif növ bağ-bostan bitkiləri, tərəvəz məhsulları ilə məşhur idi. Dövrün mənbələrində 1782-ci ilin martında bayazitli İsak paşanın xahişi ilə İrəvandan Bayazitə yeddi min dinar, iki abbası dəyərində qara qarpız, göy qarpız, mürsəqulu, xiyar, sürahi, reyhan, xına tozu, badımcan və s. toxumların göndərilməsi haqqında danışılır. Üçkilsə məbədinin məxaric dəftərində qeyd edilmiş toxum adlarının hamısı Azərbaycan türkcəsindədir. Dövrün mənbələrində bu toxumların adlarının Azərbaycan türkcəsində yazılması, bu torpaqda qədim dövrlərdən elə Azərbaycan türklərinin yaşadığını, onların oturaq təsərrüfatla, xüsusilə də əkinçilik və kənd təsərrüfatının digər sahələri ilə məşğul olduğunu, ermənilərin isə bu bölgəyə sonradan gəldiyini bir daha sübut edir".

Sözügedən müsahibədə vurğulanırdı ki, Ağrı vadisində Azərbaycanın digər bölgələri üçün səciyyəvi olan yaylaq, qışlaq maldarlığı inkişaf edib. Yazılanlara görə, Qırxbulaq, Göyçə, Aparan, Dərəçiçək, Gərnibasar, Vedibasar, Talın mahallarındakı otlaqlar heyvandarlıq üçün münbit şərait yaradırdı. O dövrün mənbələrinin birində İrəvana Təbrizdən çoxlu karvanların gəlməsinə dair məlumat verilir. İrəvandan Tiflisə, Ərzuruma, Axalsıxa, Qarsa pambıq, Təbriz, Xoy, Bayazitə düyü, buğda, arpa və duz aparılırdı. İrəvan bölgəsinin yolları kəsişməsində yerləşməsi çoxlu sayda körpülərin, karvansaraların, zərbxanaların və bazarların olmasına rəvac verirdi. Ticarət yollarından biri Hindistan, Mərkəzi Asiya və İranı Təbriz və Naxçıvan vasitəsilə İrəvan xanlığına bağlayan karvan yolu idi. Bu yola Ərzurum yolu və ya Bəzirgan yolu da deyirdilər. İrəvandan Ərzuruma gedən digər karvan yolu Aparan və Alagöz dağının şimal ətəyindən keçib Qarsa, oradan da Həsənqalaya yetişir, sonda ana xəttə qovuşurdu. İrəvandan Tiflisə gedən karvan yolu Üçkilsə, Sərdarabad, Hamamlı, Calaloğlu və Şulaverdən də keçirdi. XVII əsrdə fransız səyyahı J.Şarden bu yolun uzunluğunun İrəvan-Ağstafa yolu qədər olduğunu yazırdı. J.Şarden bu yolun üstündə yerləşən yaşayış məntəqələrinin adını da qeyd edib. İrəvandan Ağstafaya gedən yolda Bjni, Keşikkənd, Dəlican, Qaradaş, Məlikkənd, Körpükənd yaşayış məntəqələri yerləşirdi. İrəvan bu yolla Gəncə ilə əlaqə saxlayır, Şamaxıda isə Azərbaycanın Rusiyaya gedən əsas ticari yoluna bağlanırdı. İrəvanın ərazisində olan mahallarda abidələr üzərində yazılar, qayaüstü təsvirlər, daşlara həkk olunmuş simvollar əhalinin həyat tərzindən, məişətindən xəbər verir. Qeyd edilənə görə, İrəvan xanlığından da əvvəlki dövrlərdən başlayaraq burada dekorativ tətbiqi sənət sahələri arasında xalçaçılıq xüsusi yer tutub. Naxış kompozisiyasına görə Qazax, Qarabağ və Təbriz xalçaçılıq məktəblərinə daha yaxın olan İrəvan xalçaçılıq məktəbinin nümunələri zaman-zaman xarici ölkələrə daşınıb, erməni kolleksiyaçılarının sərvətinə çevrilib. Bir daha qeyd edək ki, indinin özündə də erməni xalçası kimi təqdim edilən bu incilər azərbaycanlı ilmə ustaları tərəfindən toxunub. Xalça, kilim, palaz, şəddə, eləcə də digər toxuculuq məmulatlarının meydana gəlməsi tarixən qoyunçuluqla məşğul olmayan ermənilər üçün xarakterik deyil.

Vaxtilə professor Vidadi Muradov bildirirdi ki, xalq yaradıcılığının geniş yayılmış növlərindən biri də tikmədir. "İncəsənətin bu növünün də İrəvanda məşhur olub. İrəvan xanlığına məxsus olan bədii tikmə nümunələrindən ikisi hazırda Milli Azərbaycan Tarixi Muzeyində saxlanır. Onun qeydlərinə görə, 1827-ci ildə ruslar İrəvan şəhərini zəbt edərkən qənimət kimi götürdükləri İrəvan xanlığının bayraqları bədii tikmə sənətinin nadir nümunələrindən hesab olunur. Tarixi faktlar təsdiqləyir ki, vaxtilə İrəvanın düz mərkəzində yerləşən Şiləçi məhəlləsində boyaq bitkilərindən al-əlvan rənglər alınmış, basma naxışlı parçalar istehsal edilib..."

Qərbi Azərbaycan xalçaları özünəməxsusluğu ilə seçilir və o, Azərbaycan mədəniyyətinin, incənəsinin, məişətinin, mənəviyyatının ayrılmaz parçasıdır.

*İradə SARIYEVA*